ƏBDÜRRƏZZAQ İBN ƏBDÜLMÜHSİN ƏL-BƏDR

# FİTNƏLƏRİN TƏSİRLƏRİ



TƏRCÜMƏ: SAHİB ƏSƏDOV

Sələfin Əxlaqı

آثَارُالفِتَن

# FİTNƏLƏRİN TƏSİRLƏRİ

**Müəllif:**
ƏBDÜRRƏZZAQ İBN
ƏBDÜLMÜHSİN ƏL-BƏDR

**Tərcümə:**
SAHİB ƏSƏDOV

BAKI – 2013

# TƏRCÜMƏÇİNİN ÖN SÖZÜ

*Mərhəmətli və Rəhimli Allahın adı ilə. Allaha həmd olsun! Onun Elçisi Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!*

Hörmətli oxucu! Hazırda oxuduğunuz "Fitnələrin təsirləri" kitabçasını on iki il öncə ərəbcədən dilimizə tərcümə etmişəm. Lakin müəyyən səbəblərdən kitabça nə nəşr edilmiş, nə də sosial şəbəkələrdə geniş paylaşılmışdı. İstədim ki, belə bir mövzuda böyük əhəmiyyəti olan bu kitabçanın tərcüməsini yenidən nəzərdən keçirim və oxucuların istifadəsinə verim. Müvəffəq edən Allahdır!

Kitabın mövzusu olan "fitnələr" əslində çox geniş mövzudur! Müəllif – Allah onu qorusun – əsasən fitnələrin siyasi, ictimai və dini cəhətdən mənfi təsirlərinə qısa şəkildə toxunmuşdur.

Bu kitabçanın üslubu ilə bağlı onu deyə bilərəm ki, kitabçanın ərəbcə orijinalında olduğu kimi mənbələr mətnin özündə verilmiş, haşiyədə qeyd şəklində verilməmişdir.

Kitabçanın ilkin tərcüməsində hədislər deyil, yalnız ayələr ərəbcə verilmişdir. Bu yenidən nəzərdən keçirilərək redaktə olunmuş nüsxədə ayələri ilkin tərcümədə ərəbcə və tərcüməsi ilə birgə verildiyi kimi saxlamışıq.

Fitnələr insanların daim öyrənməsi və keçmişdən ibarət alması gərəkən mövzulardan biridir. Bu kitabçada isə xüsusi olaraq fitnələrin təsirləri barədə bəhs edilir. Uca Allahdan bu kitabçanın xeyirli və bərəkətli olmasını diləyirəm!

**Yazdı:** Beynəlxalq Mədinə İslam universitetinin
doktorantura tələbəsi Sahib Əsədov
Mədinə şəhəri. 28.01.2025.

# MÜƏLLİFİN ÖN SÖZÜ

بسم الله الرحمن الرحيم. إن الحمد لله نحمده ونستعينه ونستغفره ونعوذ بالله من شرور أنفسنا ومن سيئات أعمالنا، من يهده الله فلا مضل له، ومن يضلل فلا هادي له، وأشهد أن لا إله إلا الله وحده لا شريك له، وأشهد أن محمداً عبده ورسوله، صلى الله وسلم عليه و على آله و أصحبه أجمعين، أما بعد:

Mərhəmətli və Rəhimli Allahın adı ilə. Həmd yalnız Allaha məxsusdur. Biz Ona həmd edir, Ondan bağışlanma istəyir, nəfslərimizin şərrindən və əməllərimizin pisliklərindən Ona sığınırıq. Allahın doğru yola yönəltdiyi kəsi azdıran olmaz, onun azdırdığı kəsi doğru yola yönəldən olmaz. Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O təkdir və Onun heç bir şəriki yoxdur və şəhadət edirəm ki, Məhəmməd Onun qulu və elçisidir. Allahın salavatı və salamı ona, onun ailəsinə və bütün əshabının üzərinə olsun. Sonra isə:

Bu mövzunu xatırlamağa və ondan necə qorunmaq lazım olduğunun üzərində dayanmağa ehtiyacımız var. Çünki bir şeyin təsirlərini, nəticə və zərərlərini bilmək, qula o şeyə düçar olmamışdan əvvəl ondan necə qorunmağı və çəkinməyi öyrədir. Keçmişdə belə deyərdilər: "nədən qorunduğunu bilməyən necə qorunsun?". Fitnələri, onun təsirlərini və pis nəticələrini, dönüş nöqtələrini bilməyən kimsə, böyük ehtimalla bu fitnələrdən hansınasa bulaşacaq və bununla həyatına zərər verəcək, sonra isə onun peşmançılığını çəkəcək.

Məsələlərin taleyinə və sonluqlarına baxmaq cəhətindən fitnələrin təsirlərini bilməyin qul üçün çox

böyük xeyirləri və əzəmətli faydaları vardır. Bu isə onun qorunması üçündür. Yəni o, hər hansı bir işə qədəm qoyduqda, o işin sonluğu və təsirləri haqqında düşünə bilir.

## İmam Əhmədin Fitnəylə Bağlı Bir Hekayəsi

İmam Əhmədin رحمه الله həyatında baş vermiş bir hadisədə Bağdad alimlərindən bir neçəsi evinə onun evinə gələrək deyirlər: Ey Əbu Abdullah! "Xəlqul-Quran" və digər məsələlər böyüyüb və yayılıb. (Buna münasibətin necədir?) Əbu Abdullah (İmam Əhməd) onlara dedi: Siz nə istəyirsiniz? Onlar dedilər: Biz o hakimin qərarlarından və hakimiyyətindən razı deyilik. Bu haqda səninlə məşvərət etmək istəyirik!

Əbu Abdullah onlarla bir saat müzakirə etdi və sonda onlara dedi: "*Bunları qəlbinizdə inkar edə bilərsiniz. Amma itaətdən bir əlinizi belə çəkməyin. Müsəlmanların camaatına müxalif olmayın. Öz qanınızı və müsəlmanların qanını axıtmayın, bununla yanaşı bu işin nə ilə nəticələnəcəyini yaxşı fikirləşin. Yaxşı kismsələrin bu fitnələrdən rahatlaşacağı, pis kimsələrdən isə insanların rahatlaşacağı günə qədər səbir edin*!" (Əbu Bəkr əl-Xalləl "Sünnə"də rəvayət edib. 90).

Bu, imam Əhməddən رحمه الله fitnələrin nəticələri, onun izləri və fitnə əhlinə hansı zərərlərin toxunacağını düşünmələri barədə olan çağırışı idi.

İmam Əhməd onlarla bu haqda danışdı, onlar isə onun nəsihətini qəbul etməyərək yanından çıxıb getdilər və öz fikirlərində yürüməkdən əl çəkmədilər. Sonra imam Əhmədin öz qardaşı oğlunu öz fikirlərinə

dəvət etdilər. Bu da eynilə həmin fikirlər idi. Onu atası bu fikirə düşməyə qoymayaraq dedi: "Onlarla yoldaşlıq etməkdən çəkin! Çünki, imam Əhməd onları ancaq şərdən çəkindirmişdir". O da – səhvini başa düşərək – atasından üzr istədi. Sonda isə o kimsələrin hekayələrinin sonu hakimə qarşı çıxmaq oldu. Nəticə isə İmam Əhmədin onları çəkindirdiyi aqibət oldu. Onlar (ölkədə) heç bir düzəliş (islahat) belə edə bilmədən öldürülən öldürüldü, həbs edilən həbs edildi".

Xülasə, işlərin aqibətinə, sonluğuna baxmaq və tələsməmək qulun edəcəyi ən xeyirli işdir.

Bu səbəbdən də şərəfli səhabə Abdullah ibn Məsuddan رضي الله عنه varid olduğuna görə o belə demişdir: "**Həqiqətən də qarışıq işlər olacaqdır. Siz o zaman tələsməyin! Çünki xeyirdə tabe olmaq şərə başçılıq etməkdən daha xeyirlidir!**" (İbn Əbu Şeybə. "Musannəf": 38343; Beyhəqi "Şuab": 9886).

Rəvayətdə tövsiyə edilən "التؤدة" "ət-tuədətu", sözü "təmkinli olmaq və tələsməmək" anlamındadır.

## Əli ibn Əbi Talibin Fitnə İlə Bağlı Bir Tövsiyəsi

İmam Buxarinin رحمه الله "Ədəbul-Mufrad" əsərində Əli ibn Əbu Talibdən رضي الله عنه rəvayət etdiyinə görə o demişdir: "*Sirləri yaymağa tələsən bir qövm olmayın. Çünki sizin arxanızca şiddətli və əhvalınızı korlayacaq bir sınaq, ağır və çətin işlər gəlir".*

Əgər fikir versək, o, üç şeydən çəkinməyi tövsiyyə etdi;

***Birincisi:*** **"**Sirləri yaymağa tələsən qövm olmayın". Beləcə, tələsməkdən çəkindirdi. Bu, işi dərhal etməyə çalışmaqdır. Əksinə, insana təmkinlə, məsələ haqqında düşünərək onun buraxacağı izlər və nəticələrə baxmaq gərəkdir.

***İkincisi məsələ isə:*** Onu "yayanlar" olmalarıdır; Bu əməldən isə şiddətlə çəkindirmək lazımdır. Fitnələrin qızışıb şiddətləndiyi zaman insan gərək öz sözü və kəlamıyla onun şöləsini və şiddətini artıran kəslərdən olmasın, belə edərək fitnəni və şərri yayaraq onun oduna körük vurmasın[1].

***Üçüncü məsələni də*** qeyd edərək buyurmuşdur: «Hədisdə "بذرا" demişdir. Yəni, fitnəni əkən və onu yaymağa çalışanlar. Peyğəmbər **صلى الله عليه وسلم** öz ümmətini bundan çəkindirmiş, bunun öz dövründə mövcudluğunu və gələcəkdə də mövcud olacağını xəbər vermişdir. O, öz ümmətini fitnənin ardınca getməkdən çəkindirmişdir. Əbu Hüreyrənin **رضي الله عنه** də hədisində gəldiyi kimi peyğəmbər **صلى الله عليه وسلم** buyurmuşdur:

«(Məndən sonra) **Elə fitnələr olacaqdır ki, o zaman oturan yeriyəndən, yeriyən də sürətlə yürüyəndən xeyirli olacaqdır**». (Buxari, 3406; Müslim, 2882) Yəni ki, qul hər dəfə fitnəni hərəkətə gətirməkdən və onu alovlandırmaqdan uzaq olduqca bu onun üçün daha xeyirli və daha yararlı olur. O fitnədən uzaqlaşır, Allahdan da onu və müsəlmanları

---

[1] Hədisdə keçən مذاييع sözünün təki "المذياع" kəlməsidir. Yəni sirri saxlaya bilməyən. "Mucəmus-Sihah". səh. 378. Beyrut nəşri.

fitnənin şərindən qorumaq istəyir, beləcə o kimsə fitnənin qızışıb yayılmasında bir alətə çevrilmir.

## Fitnələr Barədə Peyğəmbərin Bir Sözü

Səhih Müslimdə[2] Zeyd ibn Sabitin hədisində peyğəmbərin صلى الله عليه وسلم belə buyurduğu varid olmuşdur: "**Fitnələrin aşkar və gizli olanından Allaha sığının!" Sonra səhabələr dedilər: "Fitnələrin aşkar və gizli olanından Allaha sığınırıq!**"

Fitnələrdən Allaha sığınmaq tələb olunan bir haldır. Fitnələr zamanı Allahdan müsəlmanları qoruması, onun baş ağrılarından, təsirlərindən, təhlükə və zərərlərindən himayə etməsi istənilir.

Hədislərdə gələn dualarda da fitnələrin pislikləri və azdırmalarından Allaha sığınmalar çoxdur.

Bu elə bir məsələdir ki, müsəlman kimsə gərək buna diqqət göstərsin və bunu etməyə davam etsin. Çünki, qoruyan və özünə sığınılan da uca Allahdır. Qul öz Rəbbinə təmiz bir istəklə sığınır, özünə və müsəlmanlara fitnələrdən sığınacaq, qorunma və himayə istəyir. Hər bir müsəlmana da bunu etmək vacibdir.

Fitnələrin buraxdığı izləri anlamaq insana bir çox faydalar verir. Çünki işlərin nəticələrini, fitnələrin aqibətini bilmək onun başa gəlməsi və dərinləşməsindən öncə ondan qorunmağa və

[2] 2867 nömrəli hədis.

çəkinməyə yardım edir. Necə ki, (bu barədə) deyilmişdir:

"**Xoşbəxt kimsə başqalarından ibrət alandır**".

Beləcə, o hadisələrə baxır, diqqət yetirir, o haqda düşünür, onun buraxdığı izləri anlayır. O kəs fitnə qızışmamışdan öncə zikr və elm əhlindən soruşur. Ola bilsin ki o, fitnənin əsas aparıcısı və ya o fitnənin qapısının özü və ya o qapını başqalarının üzərinə açan qüvvə olmuşdur.

## Xeyrə Açar, Şərə Qıfıl Olanlar

İbn Macənin "Sünən" və ibn Əbi Asimin "Sünnə" əsərlərində Ənəs ibn Malikdən varid olan hədisdə peyğəmbər صلى الله عليه وسلم buyurmuşdur: "**İnsanlardan elələri vardır ki, xeyrə açar, şərə qıfıldırlar. İnsanlardan elələri də vardır ki, şərə açar, xeyrə qıfıldırlar. Xoşdur o kəsin halına ki, Allah xeyrin açarını onun əllərində etmişdir"**[3].

Hər bir müsəlman gərək öz nəfsini şərin açarı, şərin başçısı və ya şərin dəvətçilərindən biri olmaqdan, özünü və başqalarını bu həlaka salmaqdan, nə bu dünyada, nə də axirətdə nəticələri tərif gətirməyən bu haldan uzaq tutsun.

Xülasə, fitnələrin təsirləri, nəticələri və onunla əmələ gələn təhlükə və zərərləri anlamaq müsəlmana böyük fayda verir. Fitnələrin buraxdığı izlər isə çoxdur. Bunun sayı və bu barədə danışmaq uzun çəkər.

---

[3] Sünən ibn Macə. 237; İbn Əbi Asim "Sünnə". 297; Tayalisi "Müsnəd". 2082; Beyhəqi "Şuabul-İman". 698; Albani "Səhih hədislər silsiləsi" əsərində səhih hesab etmişdir. 1332.

Lakin, mən bu kiçik risalədə - Allahdan bunun bizim hamımıza xeyirli və faydalı olmasını diləyərək – bu təsirlərdən bir qisminə və fitnələrin bəzi pis aqibətlərinə toxunacağam.

## BİRİNCİ TƏSİR: İnsanların ibadətdən uzaqlaşmaları.

Fitnələrin təsirlərindən biri odur ki, fitnə qulun qayəsi üçün yarandığı ibadətdən, yerinə yetirmək üçün var olduğu itaətdən uzaqlaşmasına səbəb olur. Beləcə, qul Allahın zikrindən yayınır, onun ömürü-günü dedi-qodu və fitnələrə zəmin yaradan işlərlə keçmiş olur. Belə halda o qəlb rahatlıq və sükut tapmır, Allahı huşu ilə zikr edə bilmir. Beləcə, onun qəlbi narahat, başı qarışıq, zehni dağınıq halda məşğul olur. Bu səbəbdən peyğəmbərdən صلى الله عليه وسلم varid olmuş səhih bir hədisdə o buyurmuşdur: "**Fitnə-fəsad zamanında ibadət etmək mənim yanıma hicrət etmək kimidir**". (Təbərani "əl-Kəbir", Məaqil ibn Yəsarın hədisindən: 20/213; Albani "Səhihul-Cami"də "səhih" demişdir. 3974).

Hədisdə qeyd olunan الهرج (əl-həracu) işlərin bir-birinə qarışaraq əziyyətə çevrilməsi, fitnənin, qətllərin insanlar arasında yayılması və bunun kimi hallarda insanların izdirab içində qalmalarıdır. Belə bir vaxtda kim Allaha ibadətlə məşğul olarsa, o kimsənin müvəffəq olmuş və fitnənin çirkablarından salamat qalmış bir kimsə olduğu aydın olar. Həmçinin bu, onu göstərir ki, gərək insan fitnələr zamanı bu fitnələrdən çəkinərək ibadətə sarılsın. Bu səbəbdən də peyğəmbərimizdən صلى الله عليه وسلم varid olmuş səhih bir

hədisdə o buyurmuşdur: "**Həqiqətən də xoşbəxt kimsə fitnələrdən uzaqlaşdırılan kimsədir".** Sonra o bunu üç dəfə təkrarladı. (Əbu Davud, Miqdad ibn Əsvədin hədisindən. Albani "əs-Sahiha" əsərində səhih hesab etmişdirmişdir. 975).

Xoşbəxtlik fitnələrdən uzaqlaşmaqda, ibadətlə məşğul olmaqda, zikrdə, Allaha itaətdə və Allaha onun göstərdiyi ibadət, zikr və digər yaxınlıq növləriylə yaxınlaşmaqdadır.

"Səhih əl-Buxari"də peyğəmbərin صلى الله عليه وسلم zövcəsi Ummu Sələmənin رضي الله عنهما belə dediyi rəvayət olunur: "Bir gecə peyğəmbər yuxudan təlaşlı halda oyanıb dedi: "**Sübhənallah! (Bu gecə) Allah xəzinələrdən nələri endirdi?! Allah fitnələrdən nələri endirdi?! Otaqların əhlini kim (yuxudan) oyadar?** – Yəni, peyğəmbərin zövcələrini namaz qılmaları üçün kim oyadar? (Səhih əl-Buxari, 7069, 6218, 5844, 3599, 1126, 115)

Burada peyğəmbər صلى الله عليه وسلم fitnələrin endiyi zaman namaz qılmağa, Allaha ibadətə, Ona yaxınlaşmağa yönəldərək buyurmuşdur: «**Otaqların əhlini namaz qılmaları üçün kim oyadar? Ola bilsin ki, dünyada geyimli, axirətdə üryan olsunlar**".

Həmçinin, bu hədis də eyni mənaya dəlalət edir: "**Zülmət gecənin hissələri kimi olan fitnələr (gəlməmişdən öncə) əməllər etməyə tələsin**!" (Əbu Hüreyrənin رضي الله عنه hədisindən Müslim rəvayət etmişdir. 118) Burada da yaxşı əməllərə yönəltmişdir. Yəni, gərək insan *fitnələr zamanı* Allaha itaətə, namaza, zikrə, duaya, quran oxumağa sarılsın.

Fitnələrin dalğalandığı zaman insanlar əməllərdən və ibadətdən yayınırlar. Yalnız uca Allahın özlərinə müvəffəqiyyəti, dəstəyi və yardımını yazdığı çox az kimsələr bundan istisnadırlar.

Fitnələrdən uzaqlaşan kimsələrdən olan Həsən əl-Bəsri رحمه الله tabeinlərin dövründə fitnələrin baş verdiyi zaman demişdir: "Ey insanlar! Allaha and olsun ki, Allah sizə Həccacı[4] yalnız cəza olaraq sizin başınıza gətirmişdir. Allahın cəzasına qılıncla etiraz etməyin! Əksinə, sakit olun və itaət edin!" (İbn Səd, "Tabaqatul-Kubra". 7/164 və İbn Əsakir "Tarixu- Dəməşq" 12/178). Çünki, Allahu təala buyurmuşdur:

وَلَقَدْ أَخَذْنَاهُمْ بِالْعَذَابِ فَمَا اسْتَكَانُوا لِرَبِّهِمْ وَمَا يَتَضَرَّعُونَ

"**Biz onları əzabla yaxaladıq, onlar yenə Rəbbinə boyun əymədilər, Ona yalvarıb yaxarmadılar".** (Muminun. 76).

Yəni, insana vacib olan Allaha boyun əymək, Ona yalvarıb yaxarmaq, Onun zikrində davamlı olmaq, öz halını, nəfsini, evini islah etmək və Rəbbinə ibadətini Onun razı qaldığı şəkildə *yerinə yetirməkdir.*

Bu mənada bir söz Əbu Hüreyrədən رضي الله عنه varid olmuşdur: "*Elə fitnə vardır ki, o baş verdikdə (suda) batmaq üzrə olan kimsənin çağırışı kimi dua etməyincə ondan xilas yoxdur*". (İbn Əbi Şeybə. 7/531).

Bizdən hər birimiz bilirik ki, *suda* batmaq üzrə olan kimsənin çağırışı necə olur. Hansı ki, o bir az

[4] O dövrün zalım hökmdarı.

sonra batmalıdır. Gör o halda olan kimsə necə səslənər? *Buna görə də* o: "Elə fitnə vardır ki, o baş verdikdə suda batmaq üzrə olan kimsənin çağırışı kimi dua etməyincə ondan xilas yoxdur" demişdir. Sən də Allahın səni *fitnədən* xilas etməsi, bunda sənə yardımçı olması, salamat etməsi və qoruması üçün doğru bir şəkildə Ona tərəf dön!...

## İKİNCİ TƏSİR: İnsanları elmdən və alimlərdən uzaqlaşdırmaq.

Fitnələrin təsir və nəticələrindən biri onun insanları elm məclislərindən, alimlərin dərslərindən, hökmləri öyrənməkdən, dini biliklərdən yayındırmasıdır. O qəlblər içində qızışmış fitnə odu ilə qovrulduğundan elm tələbi üçün hüzur tapmaz, alimlərin dərslərində otura bilməz, əksinə, bunların hamısından üz döndərər.

Hətta, bundan da betəri və böyüyü – fitnənin bir çox insanları alimləri naqis və aşağı saymalarına, onların qədir-qiymətini bilməməzliyə, şərəf və irzlərinə dil uzatmalarına gətirib çıxarır. Peyğəmbərimizdən صلى الله عليه وسلم varid olan hədisdə o buyurmuşdur: "**Kiçiklərimizə rəhm etməyən, böyüklərimizə hörmət etməyən, alimimizin qədir-qiymətini bilməyən mənim ümmətimdən deyildir**". (Əhməd, 22755; Hakim isə 1/211 – Ubadə ibn Samitin رضي الله عنه hədisindən. əl-Albani isə «Səhihul-Cami"də "həsən hədisdir" demişdir. 1/211).

Fitnələr zamanı bir çox insanlar alimləri naqis görərək aşağılayır, onları sözlə və işarəylə lağa qoyur, onlara tənə edir, onların qədir-qiymətini aşağı salır,

onlara çox böyük iftiralar atır və onlara qarşı həddi aşmaqla məqamlarına qarşı çıxmağa cürət edir. Bunların hamısı fitnələrin təsirlərindəndir. Bu cür əməllərdən Allaha sığınırıq.

Bu mövzuda tarxidə baş vermiş,rəvayət olunan hadisələrdən biri də Əbdürrəhman ibn əl-Əşasın başına gələn fitnədir. Bu fitnə baş verdiyi zaman bir neçə nəfər yola çıxaraq Həsən əl-Bəsrinin رحمه الله yanına gəldilər.

Həsən əl-Bəsri رحمه الله elm əhlindən olan dəyərli imamlardan və böyük İslam fəqihlərindən biri idi. Ona dedilər: "Bu haram qan tökmüş, haram mal ələ keçirmiş, namazı tərk etmiş və etdiyini etmiş olan zalım (Həccac) haqqında nə deyə bilərsən?" Sonra da ona Həccacın etdiyi əməlləri sadaladılar.

Həsən əl-Bəsri رحمه الله isə belə dedi: "*Mən düşünürəm ki, onunla döyüşməyiniz doğru deyil; Çünki, əgər o Allahdan bir cəzadırsa, yəni Həccacı sizə düçar edibsə, bu zaman siz Allahın cəzasını öz qılınclarınızla geri döndərə bilməzsiniz. Əgər bu sizə bir sınaqdırsa, o zaman da Allahın hökmü gəlincəyə qədər səbir edin. Çünki O ən yaxşı hökm edəndir*". Onlar isə onun yanından "bu vəhşi çöl uzunqulağına itaətmi edək?" deyərək çıxdılar. ("Tabaqatul-Kubra". İbn Səd. 7/163-64; "əl-Kunə vəl-Əsmə". Duləbi. 3/1035; "Tarixu Dəməşq". 12/178).

O zaman fitnə onların nəfslərində qızışır, alim onların havasına uyğun gəlməyən, onların meyillərinə və rəylərinə uyğun olmayan bir söz danışdıqda ona tənə edirlər. İstər keçmiş, istərsə də müasir dövrdə fitnələrə dalmış kimsələrin alimlərə etdikləri tənələrin

həddi-hüdudu yoxdur. Hətta alimi (hökm verərkən insanlardan qorxaraq) güzəştə getməkdə və ya insanların xətrinə əməl etməkdə ittiham edir, ona yaraşmayan vəsflər və ləqəblər qoyurlar.

Fitnələr insanları alimlərin məqamına qarşı onları naqis görməyə, elm əhlini aşağılamağa cürətləndirir. Bu isə insan üçün ən təhlükəli şeylərdən biridir. Allah bizim hamımızı bundan qorusun!

Sonra o Həsən əl-Bəsriyə رحمه الله bu sözləri deyən və onun nəsihətini dinləməyən kimsələr İbnul-Əşasla bərabər hakimə qarşı çıxdılar, hamısı qətlə yetirildilər, heç bir xeyirə də nail olmadılar. Həmçinin, onlar elm əhlinin nəsihətindən də faydalanmadılar. Çünki, o kəslərin nəzərində elm əhlinin məqamı və sözlərinin heç bir etibarı və dəyəri qalmamışdı.

## ÜÇÜNCÜ TƏSİR: Səfehlərin başçılıq etməsi.

Həmçinin fitnələr özüylə insanlara səfehlərin başçılıq etməsini gətirir. Onlara Allahın dinindən anlayışı, məlumatı və elmi olmayanlar səbir və təmkin göstərmədən, zorbalıqla başçılıq edir, hökmləri necə gəldi götürür və (batil) rəyləri təsdiqləyirlər. Həmçinin onlar uydurmalar edərək fətvalar verir, nə elm, nə yumşaqlıq, nə də tələsməmək haqqında bir şey bilmədən başqa-başqa məsələlərə girişirlər. Onları buna sövq edən isə şücaətdən (cilovsuz din qeyrəti) başqa bir şey deyil. Bu da onları fitnələrə sürükləyir.

Buna görə də şeyxulislam İbn Teymiyyə رحمه الله "əl-Minhəc" kitabında (4/187) demişdir: "Əgər fitnə baş

verərsə, ağıllı kimsələr orada səfehlərin qarşısını almaqdan aciz qalarlar".

Fitnələrin işi də elə budur. Necə ki, uca Allah buyurmuşdur:

وَاتَّقُوا فِتْنَةً لَا تُصِيبَنَّ الَّذِينَ ظَلَمُوا مِنْكُمْ خَاصَّةً وَاعْلَمُوا أَنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

"**Elə bir fitnədən (bəladan) qorxun ki, o, sizlərdən təkcə zalım olanlara üz verməz (hamınızı bürüyər). Bilin ki, Allah şiddətli cəza verəndir**". (əl-Ənfal. 25)**.**

Əgər fitnə baş verərsə, onunla çirklənməkdən Allahın qoruduğu kimsələrdən başqası salamat qalmaz. Allahdan bizim hamımızı bu cür fitnələrdən salamat etməsini istəyirik!

## DÖRDÜNCÜ TƏSİR: Pis aqibət və talelərlə nəticələnməsi.

Fitnələrin təsirlərindən, fitnəyə daxil olan kimsənin pis tale və pis aqibətlə üzləşməsidir. Fitnəyə düçar olan kəs bu fitnədən xeyir əldə etməz, eyni zamanda başqasına da xeyir qazandıra bilməz. Şeyxulislam İbn Teymiyyə رحمه الله əvvəlki zamanlarda baş vermiş fitnələrdən bir qədərini sadalamış və bunu "Minhəcus-Sünnə" kitabında o fitnələrin pis nəticələrindən qısa, gözəl, faydalı şəkildə qeyd edərək bildirmişdir: "*Çox az olub ki, hakimiyyət sahibi imama (rəhbərə) qarşı çıxılsın və şərdən daha çox xeyrə nail*

*olunsun*". Sonra isə baş vermiş fitnələrə çoxlu misallar çəkmiş və o fitnələrin nəticələrini və buraxdığı izləri müxtəsər şəkildə qeyd edərək demişdir: "*Onlar nə dini ayaq üstə tutdular, nə də dünyanı salamat qoydular*". (Minhəcus-Sünnə. 4/527-28).

Yəni, kim o fitnələrə başçılıq edərsə, onun ardınca gedərsə, nə dini ayaqda tutar, nə də dünyanı (salamat) saxlayar; Çünki, fitnə baş verdikdə qətl baş verər, xaos artar, insanlar bir-birinə qarışar, sınaqlar və pis aqibətlər hasil olar və fitnəni ortaya salan kimsə heç bir xeyrə nail olmaz.

Bir az əvvəldə imam Əhmədin رحمه الله nəsihətinə qulaq asmayanların hekayəsi və bunun kimi Həsən əl-Bəsrinin رحمه الله nəsihətini qulaq ardına vuranların hekayəsi qeyd olundu. Bunların hər ikisinin də əməllərinin nəticəsi heç birinin dini ayaqda tuta bilməməsi oldu. Bu da onların taleləri idi. Onlar ya həbs, ya ölüm, ya da qaçıb getmək və bu qəbildən olan tale və sair sonluqlarla üzləşdilər ki, bu, tarixdə təkrarlanan bir şeydir.

İmam Zəhəbi رحمه الله "Siyəri Aləmin Nübəla" kitabının səkkizinci cildində Hakəm ibn Hişamın[5] həyatı haqqında burada qeyd edilməsinə macal olmayan uzun bir rəvayətə[6] belə başlayır: "Əndəlüsdə, əl-Hakəmin dövlətində alimlərin sayı çoxalır. Hətta, deyilmişdir ki, Qurtubada dörd min nəfər "alimlər kimi geyinmiş" adamlar vardı. O zaman ki, Allah onların fani olmalarını istədi, onlara Hakəmə haramlarla qarşı çıxmaq lazım

---

[5] O, Əməvi dövlətinin tərkibində olan Əndəlüs əmiri idi.

[6] "Siyəru-Aləmin-Nubəla" əsərinin əslinə qayıdaraq bu barədə tam təfərrüatı ilə məlumat almaq olar. 8/253-260. (müəllif).

oldu və onu taxtdan endirməyə səy göstərdilər. Sonra da onu öldürmək üçün toplandılar. Beləliklə, Əndəlüsdə İslam və əhli üçün böyük bir təhlükə yarandı. Allahdan başqa güc və qüvvət sahibi yoxdur". Sonra isə hekayəni tamamlayır. Hekayənin sonunda qeyd olunur ki, onların çoxusu öldürüldülər, bəziləri qaçdılar, bəziləri də həbs edildilər. Necə ki, haqqında danışılan qızışıb alovlanan fitnələrdəki kəslər kimi dini ayaqda tuta bilməyən kəslərin halı da belədir. Bir məsəldə deyildiyi kimi: "**Xoşbəxt kimsə özgəsindən ibrət alandır".**

Həmçinin, çox sayda fitnələrə daxil olan kimsələrin aqibətləri sonradan peşmançılıq və o fitnələrə daxil olmamaq arzusu olmuşdur. Tarix və həyat hekayələri haqqındakı kitablarda fitnələrdə iştirak edən çoxsaylı insanların sonu peşmançılıqla bitən aqibətləri sətirlərə qeyd olunmuşdur.

Şeyxulislam ibn Teymiyyə رحمه الله demişdir ki: "Beləcə, əvvəlkilər ümumilikdə o mübarizələrə daxil olduqları üçün peşman olmuşlar". (Minhəcus-Sünnə. 4/316).

Eyyub əs-Sixtiyani رحمه الله İbnul-Əşasla bərabər hakimə qarşı çıxan qariləri qeyd etmiş və demişdir: "*Onlardan kimisə tanımıram ki, ona məqamına görə nifrət edildiyi üçün öldürülsün (yəni onların öldürülmə səbəbi qari olmaları deyildi). O qarilərdən sağ qalanlar, onu salamat saxlayan Rəbbinə həmd edirdi".* Yəni, onlar düşdükləri fitnəyə görə peşman olmuşdular.

Bu babda olan maraqlı və faydalı xəbərlərdən biri də Zübeyd ibn əl-Harisin hekayəsidir. O, "Kutubu

Sittə"də özündən rəvayət olunanlardan və İslam alimlərindəndir. O, həm də İbnul-Əşasın fitnəsinə daxil olanlardandır. Lakin o, fitnəyə düşməyinə baxmayaraq öldürülməkdən salamat qalmışdır.

Məhəmməd ibn Təlha demişdir: "Zübeyd məni Əla ibn Əbdül-Kərimlə birgə güldüyümüz yerdə görərək dedi: "Cəməcimi görsəydin, gülməzdin". Onun işarə etdiyi "*Cəməcim*" isə: "Müsəlmanların əlləriylə kəsilmiş, bir-birini öldürmələri nəticəsində yerə düşmüş başlar və kəllə sümükləridir". Sonra Zübeyd deyir: "İstəyərdim ki, mənim əlim (və ya "sağ əlim" dedi) dirsəkdən qoparılaydı, ancaq mən bu fitnənin şahidi olmayaydım". (Tarixu Xəlifə. səh. 76).

Bundan sonra başqa bir fitnə gəldi və o, (Zübeyd) həmin fitnədə iştirak etməyə dəvət olundu; Lakin o (fitnələrin) özündən sonra qoyduğu izləri və mənfi nəticələri diqqət yetirərək gördü. Onun ehtiyatlı incə cavabı təcrübəli birinin cavabı idi. Bəzi rəvayətlərdə gəlmişdir ki, Mənsur ibn Mutəmir Zübeydə müxalif olurdu və onu əhli beytin öldürüldüyü bəhanəsiylə Zeyd ibn Əli ilə digər bir fitnəyə qoşmaq istəyirdi. Zübeyd isə ona belə cavab vermişdi: "Mən qarşı çıxan deyiləm. Bunun üçün bir peyğəmbər olmalıdır, onu da mən tapa bilmərəm ki, onunla bərabər ona qarşı çıxım". (Yəqub ibn Süfyan "Tarix"ində təxric etmişdir, 3/107; İbn Əsakir isə "Tarixi Dəməşq"də qeyd edib. 19/473). O, bu sözləri (hadisələrdən) məlumatlı olması, təcrübəsi ilə yanaşı, o fitnələrin buraxdığı mənfi təsirləri incələyərək söyləmişdir.

**BEŞİNCİ TƏSİR: Kim fitnələrə daxil olarsa, onun qədir-qiyməti aşağı düşər.**

Fitnələrin təsirlərindən biri də ona daxil olan elm əhlinin qədir-qiymətinin azalması və hörmətdən düşməsinə səbəb olmasıdır. (Elm əhlindən) kim fitnələrdən kim salamat qalarsa, bu onun üçün yüksəliş olar, insanların onun elmindən faydalanar, Allahın müvəffəqiyyətilə xeyri icra edər və bu xeyrin onun əliylə yayılmasına səbəb olar. Buna görə də Abdullah ibn Ovn demişdir: "Müslim ibn Yəsar رحمه الله insanların nəzərində Həsən əl-Bəsridən رحمه الله daha yüksəkdə idi. O zaman ki, fitnələr baş verdi Həsən əl-Bəsrinin hörməti artdı. Müslim ibn Yəsarın isə qədir-qiyməti insanların nəzərində aşağı düşdü. Çünki o, fitnələrdən çəkinməkdə gecikdi". (ibn Əbi Şeybə "Musannəf" əsərində. 1/128; İbn Səd "Tabaqat" əsərində. 7/165; İbn Əsakir isə "Tarix"ində, 58/146).

Abdullah ibn Ovnun haqqında danışdığı Müslim ibn Yəsar da ibnul Əşasın fitnəsinə daxil olanlardan idi. Lakin o, fitnə bitdiyi zaman Allaha həmd edir və Ona həmdində deyirdi: "Ey Əbu Qilabə! Mən Allaha həmd edirəm ki, həmin fitnə zamanı heç ox atmadım, heç bir nizə ilə bir kəsi yaralamadım, heç bir qılıncla bir kəsi vurmadım". Onun bu kəlamının mənası belədir: Mən onlarla bərabər getmişdim. Lakin mən ox atmadım, qılıncla birini vurmadım. – O bu sözləri deyir və Allaha həmd edirdi. Əbu Qilabə رحمه الله də onun yanında idi. Əbu Qilabə ona dedi: Ey Abdullahın atası! Sənin onların sırasında görən nə düşünərdi görən?!...Sən insanlar arasında qədir-qiyməti və yeri bilinən alimsən. Səni iki səf arasında görən nə etməliydi? – Sonra

sözünə davam edərək: "Vallahi! Bu Müslim ibn Yəsardır. O, tutduğu mövqedə yalnız haqq üzərində deyildimi? Sənin (burada Müslimin özünə xitab edir – tərc) iki səf arasında dayanmağın, özünün orada olmağın fitnəni artıran bir şey idi.

Bu sözlərlə onun diqqətini bu mühüm məsələyə yönəltdikdən sonra Müslim ibn Yəsar ağladı. Sonra Əbu Qilabə belə dedi: "O ağladı......ağladı.......o qədər ağladı ki, hətta mən "kaş ona bir söz deməzdim" deyə təmənna etdim". (İbn Səd. "Tabaqat". 7/187; Xəlifə. "Tarix. səh. 52; İbn Əsakir. "Tarix". 58/164). Yəni, Əbu Qilabə Müslimin öz halını xatırlatdıqda – o sadəcə onlarla birgə qan tökülməsində iştirak etmədən – bir səfdə dayandığına görə təsirlənmişdi. Bəs görəsən, o fitnədə iştirak edənlər nə etməli idilər?!...(Yəni gör indi onlar necə peşmançılıq keçirməli, necə məyus olmalıdırlar? – tərc).

## ALTINCI TƏSİR: Məsələlərin bir-birinə bənzəməsi və haqqın batilə qarışması.

Fitnələrin təsir və nəticələrindən; fitnə zamanı insanlar məsələləri bir-birinə bənzədir və məsələləri qarışdırırlar. Çox insanlar da haqla batili bir-birindən ayırd edə bilmirlər. O zaman ola bilər ki, insan niyə öldürüldüyünü bilmədən qətlə yetirilsin! Qatil isə qətlə yetirdiyi kimsəni nə üçün öldürdüyünü bilməsin! Lakin o qızışdırılmış bir fitnədir ki, insanları yırğalayır, nəfsləri dəyişir, təhlükələri böyüdür, insanları şərlərlə əhatə edir, məsələləri bir-birinə bənzədir. Əbu Musa əl-Əşari رضي الله عنه demişdir: "Həqiqətən də, əgər fitnə baş verərsə, bənzəyər (nə olduğu bilinməz), sovuşarsa, (səbəbi) aydın olar". (Təbərinin "Tarix"i. 3/26. Darul-

Kutubul-İlmiyyə). İnsanlar fitnəyə düşdükləri zaman (fitnə haqqa və ya batilə) bənzəyər, onun sirri insanlara qarışıq, aydın olmayan bir formaya düşər. Onlardan sovuşduğu zaman isə, insanlara fitnənin durumu və baş vermə səbəbi aydın olar.

Mutarrif ibn Abdullah əş-Şixxir رحمه الله demişdir: "Fitnələr gəldiyi zaman insanları dinə yönəltmək üçün gəlmir, əksinə, mömini dinindən çıxartmaq üçün gəlir". (İbn Səd "Tabaqat". 7/142; Əbu Nueym "əl-Hilyə" 2/204).

Biz bu fəsildə ən böyük fitnəni yalançı Məsih Dəccalın fitnəsi hesab edirik. Hansı ki, peyğəmbər صلى الله عليه وسلم onun barəsində həqiqətləri, aydın məsələləri, onun tək gözünün olacağını xəbər vermişdir. Onun nə olduğunu bəyan etsə belə, bununla yanaşı ona yalnız Allahın bildiyi sayda (çoxlu) insan tabe olacaqdır.

Peyğəmbər صلى الله عليه وسلم buyurmuşdur: "**Kim Dəccal haqqında eşidərsə, qoy ondan uzaqlaşsın! And olsun Allaha ki, onun yanına bir kimsə özünü mömin hesab etdiyi halda gələr, sonra da onun atdığı şübhələrdən dolayı ona tabe olar".** (Əhməd. 19968; Əbu Davud 4319; Hakim 4/576 – İmran ibn Hüseynin hədisindən. Albani "Səhih əl-Cami"də buna "səhih" demişdir: 6301). "Ona tabe olar" ifadəsi; yəni, Dəccal təsir edərək qəlbləri oğurlayar, nəfsləri özünə bağlayar; Bunu da özüylə gətirdiyi şübhələr vasitəsilə edər.

"Səhihu Müslim"də gələn hədisdə peyğəmbər صلى الله عليه وسلم buyurmuşdur: "**Kim "İmmiyyə" bayrağı altında döyüşər, qövmiyyətçilik uğrunda qəzəblənər, qövmiyyətçiliyə dayaq olar və (bu**

**yolda) öldürülərsə, onun ölümü cahiliyyə ölümü kimi olar**".

Hədisdə keçən عِمِّيَة sözü: Yəni, Görünməz məsələ, halı bilinməyən, vəziyyəti aşkar, aydın olmayan; Bu da fitnələrin halı və gördüyü funksiyadır ki, onunla insanlar fitnə içində dalğalanır, məsələ onlara aydın olmur, onlara məsələnin əsli bilinməz olaraq qalır.

Bu incə məqamda şərəfli səhabə Səd ibn Əbi Vaqqasın رضي الله عنه hekayəsini qeyd etmək gözəl olardı.

İbn Sirin رحمه الله demişdir: Səd ibn Əbi Vaqqasa – Dövründə baş verən fitnəni qəsd edərək – dedilər: Döyüşməyəcəksənmi? – O döyüş ki, Müaviyyə və Əli ibn Əbu Talib arasında idi – Səd o fitnədən kənara çəkilən və uzaqlaşan kimsələrdən idi. Ona dedilər: "Döyüşməyəcəksənmi? Çünki, sən "Şura" əhlindənsən və sən bu işdə başqasından daha haqlısan!"

O isə belə dedi: "Siz mənə iki gözü, dili, iki dodağı olan, haqqı batildən ayırd edə bilən bir qılınc gətirmədikcə döyüşməyəcəyəm".

Yəni, elə bir qılınc gətirin ki, o mömini kafirdən fərqləndirsin, birdən onunla müsəlmanı vurmaq *istəsəm* mənə xəbər versin ki, onu öldürməyim. Kafiri vurmaq istəsəm xəbər versin ki, onu öldürüm.[7] – Sonra da belə dedi: "Mən *bundan əvvəl də* döyüşmüşəm və döyüşün nə olduğunu da (yaxşı) bilirəm". (Abdur-Razzaq "əl-Musannəf". 20736; İbn

---

[7] Qeyd: O bu sözləri hər iki tərəfin müsəlman tərəf olduğu və hansı tərəfdən döyüşsə belə yenə müsəlman qanı tökəcəyindən ehtiyatlandığı üçün demişdi. ( tərc).

Səd “Tabaqat” 3/141; Əbu Nueym “Mərifətus-Səhabə” 1/135).

Yəni, o, müsəlmanların bir-biriylə vuruşduğu və boyunlarının vurulduğu döyüşə gəldikdə isə, mənə (qeyd olunan vəsflərdə) bir qılınc verməsəniz o döyüşə girməyəcəm" demiş və sonra qəribə bir misal çəkmişdi: "Bizim və sizin məsəliniz işıqlı, geniş bir yolla gedən qövmün halına bənzəyir. Onlar o yolda getdikləri halda, birdən aldadıcı bir külək qalxaraq onları yolundan döndərir və yolu azırlar. Çaşqınlıq və külək səbəbilə yol itir və (sanki) onlardan gizlənir. Onların bəziləri deyirlər: "Yolumuz sağ tərəfdədir" – sonra o tərəfə getməyə başlayırlar və çaşqınlığa düşüb azırlar. Bəziləri deyirlər: "Yolumuz sol tərəfdədir" – o tərəfə getməyə başlayırlar və çaşqınlığa düşüb azırlar. Digərləri isə belə deyirlər: "Külək başlamazdan öncə üzərində olduğumuz yol, doğru yoldur. Oturub gözləyək ki, külək dayansın. Oturub gözləyirlər və sabahlayırlar. Beləcə, külək keçmiş və yol bilinmiş olur. Bu kəslər əsil camaatdırlar". Sonra onlar dedilər: "Allahın elçisi ilə görüşənə qədər onunla nə üzərində ayrılmışıqsa, ona möhkəm sarılaq və fitnələrdən heç birinə qarışmayaq!" (İbnul-Arabi "Mucəm"ində rəvayəti bu cür tamamlayır. 713; Xəttabi "Uzlət". səh. 72; İbn Əsakir "Tarixi Dəməşq". 39/496).

Səd ibn Əbi Vaqqasın, Abdullah ibn Ömərin və səhabələrdən olan bir camaatın mənhəcinə görə Müaviyyə və Əli رضي الله عنهما arasındakı məsələnin həllini qılıncda deyil, yalnız sülhə səy göstərmək, işlərdə təmkinli olmaq və buna bənzər işlərdə görürdülər. Əli رضي الله عنه məsələdə ictihad etmişdi, Müaviyyə رضي الله عنه də ictihad etmişdi. İctihad edib haqqı və doğru olanı

axtarmaq üçün çalışıb haqqa müvəffəq olanın əcri olduğu kimi, ictihad edib haqqı və doğru olanı axtarmaq üçün çalışıb xəta edənin də xəta etməsinə görə əcri var. Üstəlik də o kəsin günahı bağışlanmışdır. Necə ki, peyğəmbər صلى الله عليه وسلم buyurmuşdur: «**Hakim hökm verdikdə (doğruya) isabət edərsə, ona ikiqat əcr (savab) vardır. Əgər ictihad edər və xətaya yol verərsə, ona bir əcr vardır**" (Səhih əl-Buxari. 7352; Səhihu Müslim. 1716; Amr ibn əl-Asın hədisindən).

Lakin, səhabələrdən olan bir camaat da bu rəydə idi ki, bunun kimi (məsələnin) həlli qılınc və döyüşdə deyil, həll yolu yalnız sülhə çalışmaq, döyüşdən uzaqlaşmaq və başqa metodlar üzərində sözü bir araya gətirməyə səy göstərməkdədir.

### YEDDİNCİ TƏSİR: Yetişməkdə olan nəslin və cavanların *fitnə səbəbilə* dəyişilməsi:

Həmçinin, fitnələrlə əlaqəli gələn təsirlərdən; Fitnələr səbəbilə yetişməkdə olan nəslin və gənclərin müxtəlif çağırışlar və ideyalarla əzab-əziyyətli, iztirablı, sonu qorxulu, aqibəti pis olan yollara düşərək dəyişilmələridir. Buna görə də gənc bir kəsə yaraşar ki, edilən çağırışlar, müxalif şüarlar, (ara) qarışdıran fikirlər və bunun kimi şeylərə aldanmasın. Əksinə, bir şeyə çağırıldığı zaman elm əhlinin böyüklərinə qayıtsın.

Peyğəmbər صلى الله عليه وسلم buyurmuşdur: "**Bərəkət sizin böyüklərinizlə birgədir**". (İbn Hibban. 559; Təbərani "əl-Əvsat" 8991; Hakim səhihləşdirmişdir, 1/131; Zəhəbi də eynisini demiş, Albani də "əs-Sahihə"də bunu təsdiqləmişdir).

Müsəlman hər hansı bir yola, fikrə və ya şüara dəvət edildikdə elm əhlinin böyüklərinə, onu yaxşı bilənlərə, elmi öyrətmək və onu yaymaqla tanınmış alimlərə qayıtmalıdır. O alimlər ki, ayaqları elmdə, onun tədrisi və təkrarı yolunda qabarmış, saçları fətva vermək, haqqı bəyan etmək, insanları doğru yola istiqamətləndirmək, onlara nəsihət etmək və onları öyrətməkdə ağarmışdır. Qaranlıq qalan məsələlərdə onlara qayıdılır və onlardan soruşulur. Lakin, ola bilər ki bəzi cavanlar fitnələrə tədricən daxil olsunlar, atdıqları addımlarla böyük məsələlərə və böyük problemlərə girişsinlər. Ola bilsin ki sonradan o fitnələrdən özlərinə çıxış yolu tapa bilməsinlər. Fitnə ardınca gedən balacalar[8] işin əvvəlində tanınmış mövzulardan və bilinən məsələlərdən istifadə edirlər. Buna misal, camaat şəkilndə toplanıb bilinən məsələlər üzrə sövdələşməkdir. Məsələn, deyirlər ki, "Allaha, Onun mələklərinə iman gətirmək, namaz qılmaq, zəkat vermək üzərinə cəm oluruq və bunun üzərinə sövdələşirik". Sonra isə buna bəzi (fitnəyə sürükləyən) sözləri əlavə edirlər. Bir müddət sonra artıq o gənc görür ki, o bu (fitnələrlə dolu) sövdələşməyə davamlı şəkildə riayət edir. Ola bilsin ki, o gənc hansısa partiyaya və ya təşkilata qoşulsun və ya kiməsə beyət etsin. Bununla da o özünü getdiyi yolda çaşqınlığa düşmüş halda görsün və geri dönmək onun üçün çətinləşsin. Əgər bu gənc Allahın müvəffəqiyyət bəxş etdiyi bir gəncdirsə, o (geri qayıdaraq) bu fitnədən salamat qalar. Keçmişdə də buna bənzər hadisələr baş vermişdir.

---

[8] Bu sözü şeyx özü elə bu cür də işlədir. مع الصغارمن مثيرالفتن (tərc).

Tabeinlərdən Mutarrif ibn Abdullah əş-Şixxiyr رحمه الله uşaqlığında baş vermiş bir hekayəni rəvayət edərək deyir: Zeyd ibn Suhanın yanına gedirdik, o bizə belə deyirdi: "Ey Allahın qulları! Hörmətlə və gözəl davranın! Çünki, qulların Allaha yaxınlaşması iki xislətlə olur; Qorxu və itaət. – O, (məsciddə) moizə edən biri idi. O, öyüd nəsihət edir, xatırladır, onları Allahdan qorxmağa, ibadətə və itaətə çağırırdı.

O (rəvayət edən) belə deyirdi: "Günlərin bir günü onun yanına gəldim. Bir yazı yazmışdılar, orada bu mənada sözlər düzülmüşdü: *Allah bizim Rəbbimizdir, Məhəmməd* صلى الله عليه وسلم *peyğəmbərimizdir, Quran rəhbərimizdir. Kim bizimlə bərabər olarsa, biz də onunla bərabər olarıq. Kim də bizə müxalif olarsa, bizim əlimiz də onların əleyhinə olar* – Bu məna və məzmunda bir yazı yazmışdılar ki, onun zahiri (mənası) çox insana problemli görünən məsələ deyildi.

- (Ravi sözünə davam edərək) deyir: Beləcə, o yazını bir-bir hamıya göstərməyə başladılar. Hər dəfə yazını birinə göstərdikdə ona: "Bu yazıdakını təsdiqləyirsənmi, ey filankəs?" – deyər, o kimsə də: "Bəli, təsdiqləyirəm" deyərdi.

- (Ravi deyir): Hətta, növbə mənə çatdı və mənə dedilər: "Ey cavan, bunu təsdiqləyirsənmi?"

- Dedim: "Yox, təsdiqləmirəm!"

- Zeyd, yəni, Suhanın oğlu dedi: O cavanın üzərinə getməyin!

- (sonra) dedi: Sən nə deyirsən, ey cavan?

- Dedim: Həqiqətən də, Allah öz kitabında məndən Onun kitabındakı əhddən başqa bir şeyin üzərinə əhd etməməyim barəsində əhd götürmüşdür. (Bu sözdən) sonra onlar axırdan başlayaraq geri

qayıtdılar və onlardan heç biri o yazını təsdiqləmədi. Onlar otuz nəfərə yaxın olardılar.

Sözün məğzi budur ki, ola bilsin fitnələr bir çox gəncləri və yeniyetmələri yavaş-yavaş təşkilatlara və ya qruplaşmalara və ya sövdələşmələrə (beyətlərə) və ya bunun kimi məsələlərə daxil etsin, bunun aqibəti isə heç də öyülən bir hal olmasın.

## SƏKKİZİNCİ TƏSİR: İman qardaşlığının və dini bağlılığın zəiflədilməsi:

Fitnələrin buraxdığı izlərdən və pis nəticələrdən biri də onun cəmiyyətləri bir-birindən aralaması, iman qardaşlığını, dini bağlılığı zəiflətməsi və insanlar arasında kin-küdurəti, düşmənçiliyi yaymasıdır. Buna görə də "İki Səhih" kitabında olan hədisi nəql etmiş Hüzeyfə ibn əl-Yəmən رضي الله عنه demişdir:

"Peyğəmbərin صلى الله عليه وسلم əshabı ondan xeyir haqqında soruşardılar. Mən isə ondan mənə toxunmasından ehtiyatlandığım üçün şər haqqında soruşurdum. Mən dedim: Ey Allahın elçisi! Biz cahillik və şər içində idik. Belə bir halda Allah bizə bu (İslamı) xeyri gətirdi. Bu xeyirdən sonra şər varmı? Dedi: **Bəli**. – dedim: Ey Allahın elçisi! Bu şərdən sonra xeyir varmı? – Dedi: **Bəli və orada duman (hadisəsi) olacaqdır**. – Bəzi rəvayətlərdə isə varid olmuşdur ki, o "**yerdə qalanlar** (digərləri)" – bir rəvayətdə "**havada uçuşan toz-torpaq üzərində olan bir camaat**"....."**düşmənlik üzərində sülh**" bir rəvayətdə isə: "**Qövmlərin qəlbləri əvvəlki halına qayıtmayacaqdır**". (Əhməd. 23282; Əbu Davud.

4226; İbn Hibban. 5963; Albaninin “əs-Sahihə” əsərinə bax: 2739).

Söhbətin məğzi budur ki, fitnələr qızışdığı zaman nəfslərdə dəyişiklik baş verir ki, bu da qardaşlıq və iman bağlarının sarsılmasına gətirib çıxarır. Allahu təbərakə və təala buyurmuşdur:

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ

**"Möminlər, həqiqətən də qardaşdırlar. (Elə isə) qardaşlarınızın arasını düzəldin. Allahdan qorxun, bəlkə rəhm olunasınız".** (Hucurat. 10).

Peyğəmbər صلى الله عليه وسلم buyurmuşdur: "**Allahın bir-biri ilə qardaş olan qullarından olun! Müsəlman müsəlmanın qardaşıdır. Ondan yardımı kəsməz, ona zülm etməz, onu həqir görməz. Təqva buradadır – (deyərək qəlbinə *işarə etdi*). Müsəlmanın müsəlman qardaşını aşağılaması şər olaraq bəs edər**". (Müslim Əbu Hüreyrənin hədisindən rəvayət etmişdir. 3564). Bu mənada hədislər çoxdur.

## DOQQUZUNCU TƏSİR: Qətlə və qan tökməyə cürət etmək.

Fitnələrin buraxdığı izlərdən və nəticələrdən biri də, müsəlmanların öz aralarında bir-birilərinin qanlarını halal görərək, onları qətlə cürətləndirməsidir. Abdullah ibn Ömərdən رضي الله عنه rəvayət olunduğuna görə o belə demişdir: "Fitnə zamanı (insan) öldürməyi (ciddi) bir şey hesab etməzsiniz". (Əhməd, 4871).

Bu əzəmətli qadağa qanların axıdılmasına, malların zəbt olunmasına, namusların tapdanmasına daxil olmağa qarşıdır. İbn Ömərin bu barədə əzbərlənəsi və əməl olunası gözəl, əzəmətli kəlamı var. O kəlamı da ona "mənə elm haqqında yaz" deyə məktub göndərən bir kişiyə yazdığı cavabında demişdir: "*Həqiqətən də elm çoxdur! Ey qardaşımın oğlu! Əgər müsəlmanların qanını tökməkdən, mallarını yeməkdən, dilinlə namus və şərəflərinə toxunmaqdan uzaq olaraq camaatlarıyla birgə olmağı bacarsan, bunu yerinə yetir*!" (Tarixu Dəməşq. 31/170; Siyəri Aləmin-Nübəla, 3/222).

Doğurdan da bu, elmin və xeyirin hamısına şamil olan ən böyük tövsiyyələrdən biridir.

## ONUNCU TƏSİR: Əminamanlığın aradan qalxması.

Fitnələrin təsirlərindən biri də, fitnələrin sonda əminamanlığın pozulmasına gətirib çıxarmasıdır. Əminamanlıq isə pak və nöqsansız Allahın iman gətirmiş ümmətə olan ən böyük nemətlərindən biridir:

الَّذِي أَطْعَمَهُمْ مِنْ جُوعٍ وَآمَنَهُمْ مِنْ خَوْفٍ

"**Allah onlara aclıqdan sonra yemək verdi və qorxudan sonra əminamanlıq bəxş etdi**". (Qureyş. 4).

Əminamanlıq böyük bir nemətdir. İnsanın qanının, malının, canının, şərəfinin, namusunun və digər şeylərinin qoruması böyük nemətlərdəndir. Lakin, məsələn, xaosa (qarmaqarışıqlığa) girdikdə, fitnələr qızışdıqda və alovlandıqda qanlar tökülür, mallar tələf

olur, canlar alınır, uşaqlar yetim, qadınlar isə dul qalır və bunun kimi xoşagəlməz nəticələr baş verir.

**ON BİRİNCİ TƏSİR: Mənəviyyat işğalçılarının öz batillərini yaymaqda cürətlənmələri:**

Fitnələrin təsirlərindən biri də - istər əxlaqi, istər də etiqadi cəhətdən olsun – həqiqətən də fitnələr *baş verdikdə* insanlara haqdan çevrilmə qapılarını açır. Bu zaman işğalçılar və fəsad əhli öz batillərini və fəsadlarını yaymağa cürətlənirlər. Çünki, fitnə haqq əhlini məşğul edir. Onunla məşğul olmaqla vaxtları zay olur. Bu da onları xeyirdən, faydalanmaqdan və fayda verməkdən yayındırır. Beləcə fəsad və şər əhli bu fürsəti ələ keçirirlər. Sonra da öz batillərini, şərlərini yaymağa, rəzilliyə, fəsada, etiqadi çevrilişə və ya çevrilmiş fəsadlı yollara çağırmağa başlayırlar. Onlar insanların və xeyir əhlinin başının fitnələrə qarışmasıyla fürsət əldə etmiş olurlar. Bu da hər bir müsəlmana əsas verir ki, o fitnə və ona aparan yollardan çəkinmək qayəsində olsun.

**ON İKİNCİ TƏSİR: Düşmənlərin müsəllət olması.**

Fitnələrin təsirlərindən biri də haqq əhli öz aralarında mübahisələr etdiyi zaman onlar arasında xaos və qətlin yayılması, işlərin bir-birinə qarışması, sözlərinin uyğun gəlməməsi baş verir. Düşmənlər bu fürsəti ələ keçirir, iman əhlinə müsəllət olur və onlara müxtəlif vasitələrlə təzyiq edirlər. Uca Allah buyurmuşdur:

وَلَقَدْ أَخَذْنَاهُمْ بِالْعَذَابِ فَمَا اسْتَكَانُوا لِرَبِّهِمْ وَمَا يَتَضَرَّعُونَ

"**Bir-birinizlə mübahisə etməyin, yoxsa, gücdən düşər və zəifləyərsiniz**". (əl-Ənfal. 46).

Ona görə də hər bir müsəlmana vacibdir ki, fitnələrdən və onun təhlükələrindən çəkinmək qayəsində olsunlar, bundan ehtiyat etsinlər, Allaha sadiq bir yönəlişlə yönələrək onları fitnələrin aşkar və gizli qalanından qorumasını, onların halını islah etməsini, sözlərini haqq və doğru yol üzərində bir etməsini istəsinlər.

Əzəmətli Ərşin Rəbbi, Kərim olan Allahdan Onun gözəl adları və sifətləriylə istəyirik! Çünki O, Özündən başqa ilah olmayan, Rəhməti və Elmilə hər şeyi əhatə edən Allahdır! Ondan fitnələrin gizli və aşkar olanından bizi qorumasını, bizi fitnələrdən uzaqlaşdırmasını, bizi onun həlak etmələrindən salamat etməsini, bizi öz mühafizəsi ilə hifz etməsini diləyirik! Həqiqətən də O, Eşidən və duaları Qəbul Edəndir.

*Sonda Allahın salavatı və salamı Onun elçisi Muhəmmədin, əshabının, qiyamət gününə kimi onun yoluyla gedənlərin, sünnətinə tabe olanların üzərinə olsun. Həmd olsun aləmlərin Rəbbi olan Allaha!*

*   *   *

# KİTABIN İÇİNDƏKİLƏR

Tərcüməçinin Ön Sözü..........................................2
Müəllifin Ön Sözü.................................................3
İmam Əhmədin Fitnə Bağlı Bir Hekayəsi..................4
Əli ibn Əbi Talibin Fitnə İlə Bağlı Bir Tövsiyəsi...........5
Fitnələr Barədə Peyğəmbərin Bir Sözü.....................7
Xeyrə Açar, Şərə Qıfıl Olanlar..................................8
FİTNƏLƏRİN TƏSİRLƏRİ.......................................9
BİRİNCİ TƏSİR: İnsanların ibadətdən uzaqlaşmaları...9
İKİNCİ TƏSİR: İnsanları elmdən və alimlərdən uzaqlaşdırmaq...................................................12
ÜÇÜNCÜ TƏSİR: Səfehlərin başçılıq etməsi.............14
DÖRDÜNCÜ TƏSİR: Pis aqibət və talelərlə nəticələnməsi....................................................15
BEŞİNCİ TƏSİR: Kim fitnələrə daxil olarsa, onun qədir-qiyməti aşağı düşər.............................................19
ALTINCI TƏSİR: Məsələlərin bir-birinə bənzəməsi və haqqın batilə qarışması.........................................20
YEDDİNCİ TƏSİR: Yetişməkdə olan nəslin və cavanların fitnə səbəbilə dəyişilməsi......................24
SƏKKİZİNCİ TƏSİR: İman qardaşlığının və dini bağlılığın zəiflədilməsi...........................................27
DOQQUZUNCU TƏSİR: Qətlə və qan tökməyə cürət etmək.........................................................28
ONUNCU TƏSİR: Əminamanlığın aradan qalxması....29
ON BİRİNCİ TƏSİR: Mənəviyyat işğalçılarının öz batillərini yaymaqda cürətlənmələri........................30
ON İKİNCİ TƏSİR: Düşmənlərin müsəllət olması......30
KİTABIN İÇİNDƏKİLƏR.........................................32
Qeydlər................................................................33

# QEYDLƏR

# QEYDLƏR

**Qeyd:** Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:
sahibfarmanoglu@gmail.com

**Kitabçanın adı:** Fitnələrin təsirləri.
**Redaktədən sonrakı tarix:** 03.02.2025.
**Kitabçanın səhifələrinin sayı:** 35.
**Kağız ölçüsü:** A5 21sm × 14.8sm.
**Müəllif:** Əbdürrəzzaq ibn Əbdülmühsin əl-Bədr.
**Tərcüməçi:** Sahib Fərman oğlu Əsədov.
**Redaktorlar:** Malik Əliyev, Telmar Namazov.

Peyğəmbərimiz ﷺ buyurmuşdur:

"Həqiqətən də xoşbəxt kimsə fitnələrdən uzaqlaşdırılan kimsədir".

"əs-Sahiha". Albani. 975.

Abdullah ibn Məsud (Allah ondan razı olsun) demişdir:

"Həqiqətən də qarışıq işlər olacaqdır. Siz o zaman tələsməyin! Çünki, xeyirdə tabe olmaq şərə başçılıq etməkdən daha xeyirlidir!"

"Şuab". Beyhəqi. 9886.

Sələfin Əxlaqı